Cavad Xan türbəsi

Müəllif: Elnur Pişnamazzadə
13.09.2011 20:06

Gəncə şəhərində, Şah Abbas meydanında, Şah Abbas məscidinin arxasındadır. Hələ SSRİ dövründə məscidin həyətində fəvvarəni inşa etmək məqsədi ilə aparılan qazıntılar zamanı təsadüfən ekskovator nəyəsə ilişir və qazıntılar dayandırılır. Ərazidən üstü ərəb dilində yazılmış baş daşı və məzar aşkarlanır. Yazıların oxunması məzarın şəhid Gəncə xanı Cavad Xana aid olduğunu göstərir və Gəncə sakinlərinin etiraz və tələblərinin səyi nəticəsində məzar bərpa edilir.

Doğulduğu il 1748 - Vəfatı yanvarın 4-ü 1803.

Cavad Xan Gəncəlilərin döyünən-qürurlu ürəyidir!